

# L.İ.BREJNEV

## Dünyanın ən nəhəng ölkəsinin rəhbəri qızını idarə edə bilmirdi...

*Bəzən ağır həyat şəraitimizə, dözülməz güzəranımıza baxıb ötən günləri göz önünə gətirir, dərindən köks ötürüb, ah çəkməkdən özümüzü saxlaya bilmirik: «Eh, heyf deyildi Brejnev dövrü...»*

*Amma Brejnev dövrü də tərədlərdən xali deyildi. Aradan 25 ilə yaxın bir müddət keçəndən sonra onları təhlil edərkən istər-istəməz çatışmazlıqları doğuran səbəblərə haqq qazandırmalı olursan: «Əlbəttə, başqa cür ola bilməzdi. Öz doğma qızını idarə edə bilməyən Sovet rəhbəri o boyda dövlətlə necə bacarardı?!»*

*İnanırıq ki, birə etiraz edən də tapılacaq: «Allah pis övladın belini qırsın.»*

*Bu məqalədə söhbət rəhbərin qızı Qalina Leonidovna Brejnevin sərgüzəştlərindən gedəcək.*

Brejnevin nəvəsi Andrey Yuryeviç bibisini belə xarakterizə edir: «Babamın ondan zəhləsi gedirdi. Məsləhətə qulaq asan deyildi. Könlünə düşən hərəkəti həyata keçirməkdən həzz alırdı. Gününü yeyib-içməkdə, eyş-işrətdə keçirirdi. Tanış olduğu kişilərlə elə davranırdı ki, sanki onlar qadın, bu kişi idi. Odur ki, bibimlə ailə qurmaq fikrində olanlar belə tezliklə yanlış yolda olduqlarını başa düşüb bir bəhanə ilə aradan çıxırdılar. Təbii ki, bu görüş və əlaqələr Brejnevlər ailəsinə başucalığı gətirmirdi. Mən o vaxt nisbətən balaca olsam da, evdə gedən söhbəti yaxşı anlayırdım. Babamın Qalina Leonidovnaya dəfələrlə qışqırıb ürəyini tutduğunun, «boş-boş məsləhətlərdən» bezərək qapını zərblə çırpıb evdən çıxan bibimin arxasınca göz yaşı tökdüyünün şahidi olmuşdum.

Yaxşı ki, belə bir vaxtda tale bibimi Yuri Mixayloviçlə qarşılaşdırdı. Çurbanovun gəlişi ilə sanki vəziyyət düzəlməyə başladı. Amma bu zahirən beləydi. Çurbanov bibimin səbəbinə vəzifə pilləsində tez-tez ucaldığına görə çox vaxt Qalina Leonidovnaya qadağa da qoya bilmirdi. Belə anlarda arvadının sərbəstliyinin qarşısını almaqdansa, Çurbanov onu başlı-başına buraxıb «öz işləri» ilə məşğul olmağı daha məqsədəuyğun bilirdi. «Öz işi» deyəndə rüşvət alıb vardövlət toplamağı nəzərdə tuturam...»

Maraqlıdır, bəs görəsən Çurbanov Brejnevlər ailəsi ilə necə tanış olur. Gəlin, Yuri Mixayloviçin xatirələrini dinləyək: «1972-ci ilin yanvar axşamlarından birində Şusev küçəsində yerləşən restorana şam etməyə gəldim. Yanımda yoldaşlarım da vardı. Stol arxasına əyləşib, yemək sifariş etdik. Yeyib-içir, deyib-gülürdük. Birdən gözüm bizdən iki stol aralıdakı məclisə sataşdı. Stol arxasında əyləşənlərin əksəriyyətini tanıyırdım. Odur ki, çox keçmədi yoldaşlarımı da götürüb həmin stola yaxınlaşıb salamlaşdıq. Yanımdakı uşaqları onlarla tanış etdim. Onlar da özlərini təqdim etdilər. Növbə məclisdə əyləşən yeganə qadına gəldikdə mən onun sıxmaq üçün uzanmış əlini öpdüm və adımı dedim: «Yuri». Xarici görkəmi ilə diqqəti cəlb edən gənc qadın da öz növbəsində xəfifcəsinə gülümsündü: «Qalina».

Heç vaxt ağlıma gəlməzdi ki, bu, Brejnevin qızı Qalina Leonidovna olsun.

Bir azdan dağılışdıq. Hərə öz evinə getdi. Aradan bir müddət keçmiş Qalina mənim iş yerimə zəng vurdu: «Tamam itib-batıbsınız. Zəng də vurmursunuz?!»

Doğrusu, bu telefon zəngi məni çox sevindirdi. Amma bir anlığa özümü itirdim: «O mənim telefonumu haradan bilir?!» Birdən ağlıma gəldi ki, restoranda yeyib-içərkən vermişəm.

Xəttin o başından səsi gəldi:

«Nədir, niyə donub qalıbsınız? Yoxsa zəngim yerinə düşmədi?! Bəlkə restorana ödəmək üçün pulunuz yoxdur?!»

Qalinanın zarafatı məni bir az cürətləndirdi: «Yox, nə danışırsınız, nə vaxt desəniz, mən qulluğunuzda hazıram», - dedim.

Beləliklə, qərara aldıq ki, görüşək. İşdən sonra Qalina Leonidovna maşınla mənim arxamca gəldi və bütün gecəni birgə keçirdik. Bu qadın məndə xüsusi maraq doğurdu. Görüşdən-görüşə bu maraq xüsusi hissə çevrildi. Sonra mən istirahətə getdim. Qalina bir neçə dəfə yanıma gəlib mənə baş çəkdi. Nəhayət, biz evlənməyə qərar verdik. Qalina məsləhət gördü ki, nikah bağlamadan əvvəl valideynlərinin xeyir-duasını alaq. Bu məqsədlə hazırlıq görürdük ki, Qalina Leonid İliçin mənimlə tanış olmaq marağında olduğunu söylədi. Özümü tamam itirdim. Sanki başıma bir qazan buzlu su tökdülər, dizlərim əsdi: «Demək neçə vaxtdır görüşdüyüm qız Sov.İKP MK-nın Baş katibinin qızı imiş. Bəs nə yaxşı belə sərbəstdir? Ətrafında cangüdənləri yoxdur?!»

L.İ.Brejnevlə Kutuzov prospektində yerləşən altı otaqlı evində deyil, «daça»sında görüşdük. Təyin olunan gün biz «daça»ya gəldik. Nahar vaxtına yaxın idi. Qalina məni anası ilə tanış etdi. Doğrusu, Viktoriya Petrovnanın sadəliyi və mehribanlığına valeh oldum. Əyləşmək üçün mənə yer göstərdilər. Leonid İliç hələ işdən qayıtmamışdı. Nahardan sonra biz vaxtımızın əksər hissəsini kinoya baxmaqla öldürdük. Hava yenicə qaralmağa başlayırdı ki, Brejnev gəldi. İlk sualı bu oldu: «Yuri, sənsən?». «Hə!» - cavabı alınca zarafatından qalmadı: «Bəs sən niyə belə ucaboylusan?!» Zarafata zarafatla cavab vermyə cürətim çatmadı. Leonid İliç əynini dəyişəndən sonra şama əyləşdik. Söhbət zamanı o, Qalina və məndən qərarımızın nə dərəcədə ciddi olduğunu soruşdu, hansı vəzifədə çalışdığımla maraqlandı. SSRİ DİN Daxili Qoşunlar Siyasi İdarəsinin rəis müavini olduğumu söylədim. Valideynlərin xeyir-duası ilə biz Qaqarin rayonunda nikaha girdik.

Brejnevin təkidi ilə şənlik elə də təmtəraqlı keçmədi. Mənim tərəfimdən atam, anam, qardaş-bacım, bir neçə iş yoldaşım və Qalinanın yaxın rəfiqələri iştirak etdi. Qonaqları Leonid İliçin özü qarşılayırdı. Onları yerbəyer edəndən sonra özü də stol arxasına keçdi: «İndi isə masabəyi seçmək lazımdır, bəs kimi seçək? Əlbəttə, Leonid İliçi!» Beləcə zarafata salıb Brejnev o məclisi çox şən və yüksək səviyyədə apardı. Toyun təəssüratından yenicə qurtarırdıq ki, vəzifəmi böyütdülər və mənə polkovnik rütbəsi verdilər. 1975-ci ildə artıq general və SSRİ DİN Daxili Qoşunlar Siyasi İdarəsinin rəisi idim. Elə həmin il Qızıl Ulduz ordeni ilə də təltif olundum. 1976-cı ildə vəzifə pilləsində yenidən ucaldım - SSRİ DİN-nin müavini.

Mənim üçün çox gözlənilməz olan bu vəzifəni Noyabr bayramı ərəfəsində verdilər. Mən Qalina ilə «daça»ya gedirdim. Birdən maşında telefon zəng çaldı. Leonid İliçin qəbul otağından növbətçi katib idi: «Sizinlə Brejnev danışacaq!» Sakit dayandıq. Xəttin o başından Leonid İliçin gümrah səsi gəldi: «Səni yeni vəzifən münasibəti ilə təbrik edirəm...» Tələsik soruşdum: «Nə vəzifə?» Brejnev özündən razı halda gülə-gülə: «Bu gündən Şelexovun müavinisən.» Bir anlığa özümü unudaraq onun sözünü ağzında qoydum: «Leonid İliç, axı mənimlə heç kim məsləhətləşməyib». Deyəsən qanı qaraldı: «Bircə bu qalmışdı ki, hələ səninlə də məsləhətləşsinlər... Bu, Siyasi Büronun qərarıdır. Mən də imza atası oldum. Bu vəzifəyə səni Şelexov özü təklif etdi. Həmçinin sən general-leytenant oldun...» Susmağı üstün tutdum. Bilirdim ki, bütün bunlar Leonid İliçin öz işləridir.

Leonid İliç ova getməyi çox xoşlardı. Vurduğu qabanı tək yeməz, onu hissələrə ayırardı: «Bu Çernenkonun, bu Andropovun, bu Ustinovun...» Bir azdan həmin adamlara zəng edərdi: «Hə, aldınız? Heç bilirsiniz necə vurdum?»

Brejnevə sükan arxasında əyləşmək də xüsusi ləzzət verərdi. Belə vaxtlar onun yanında mühafizə rəisi deyil, arvadı əyləşər və tez-tez xəbərdarlıq edərdi: «Leoniya, bir az yavaş sür!...»

Leonid İliç nə qədər kövrək olsa da, qorxaq deyildi. 70 yaşında ikən həkimlər onun... kasib atası oldular. Müharibə zamanı dəymiş qəlpələr öz təsirini 35 il sonra göstərmişdi. Həkimlər baş sındırarkən o özü demişdi: «Rədd eləyin, getsin!»

Bir dəfə isə Özbəkistana Lenin ordeni verməyə gedən Brejnev Aviasiya zavodunu gəzməyi qərara alır. Rəhbəri daha yaxından görmək üçün xeyli adam toplaşır. Bədbəxtlikdən üstündə 7-8 adam olan taxta balkonlardan biri uçur və onların hamısı 5-6 m aşağıda ətrafı seyr edən Brejnevin üstünə tökülür. Ağır yaralanmasına baxmayaraq Leonid İliç uzunmüddətli müalicəyə Lenin ordenini təqdimetmə mərasimindən sonra yola düşdü. Aradan iki il keçəndən sonra isə artıq Brejnevi tanımaq olmurdu. Bir vaxtlar səhərdən axşamadək çox səmərəli işləyən bu adamı kabinetinə üç-dörd adam köməkləşib aparırdı. Tədricən Kreml Brejnevlə vidalaşmağa hazırlaşırdı!!...

**Yaşar HİDAYƏTOĞLU**